# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 avqust tarixli 286 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə tərəfindən yaradılan sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 avqust tarixli 286 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 975 (Cild I); 2025, № 7, maddə 730, № 9, maddə 865, № 10, maddə 968, № 12 (II kitab), maddə 1258) ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə tərəfindən yaradılan sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1.1-ci yarımbənddə “qəbul edilmiş” sözləri “yerləşdirilmiş” sözü ilə əvəz edilsin.

2. 3-cü hissə üzrə:

2.1. 3.1.1-ci yarımbənddə “şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi” sözləri “şəxsin (ailənin) dövlət sosial xidmət müəssisəsinə yerləşdirilməsi və həmin müəssisəni tərk etməsi, habelə sosial xidmətin göstərilməsi” sözləri ilə, “şəxsləri Müəssisəyə qəbul etmək” sözləri “şəxslərin Müəssisəyə yerləşdirilməsini və Müəssisəni tərk etməsini, habelə sosial xidmətin göstərilməsini təmin etmək” sözləri ilə əvəz edilsin;

2.2. 3.1.3-cü, 3.1.4-cü (hər iki halda), 3.1.5-ci, 3.1.6-cı, 3.1.8-ci, 3.1.15-ci və 3.2.4-cü yarımbəndlərdə “qəbul edilmiş” sözləri “yerləşdirilmiş” sözü ilə əvəz edilsin.

3. 4.5.15-ci yarımbənddə “qəbulunu və Müəssisəni tərk etməsini” sözləri “yerləşdirilməsini və Müəssisəni tərk etməsini, habelə sosial xidmətin göstərilməsini” sözləri ilə əvəz edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 9 ” “ sentyabr ” 2026-cı il

№ 279